# SOVET DÖVRÜ MƏTBUATI

Azərbaycan mətbuatının inkişaf mərhələlərindən biri də Sovet dövrünə – 1920-1991-ci illərə təsadüf edir. Bu dövr ölkənin siyasi həyatında, iqtisadi və sosial strukturunda köklü dəyişikliklərin baş verdiyi, kommunist ideologiyasının hökm sürdüyü bir zaman kəsimini əhatə edir. Sovet dövründə mətbuat partiya və dövlətin bir ideoloji alətinə çevrilsə də, həmin dövrdə Azərbaycan mətbuatı özünün texniki və peşəkar inkişafını da yaşadı. Müxtəlif qəzet və jurnallar fəaliyyət göstərdi, jurnalist kadrları yetişdi, maarifləndirmə və ictimai şüurun formalaşmasında mətbuatın rolu ön planda oldu.

Sovet dövründə mətbuatın əsas funksiyası Kommunist Partiyasının təbliğat və təşviqat işlərini həyata keçirmək idi. Mətbuatın ideoloji funksiyası bir nömrəli məsələ hesab olunurdu. Mətbuat vasitəsilə xalq kommunist ideologiyası əsasında tərbiyə olunmalı, "sosialist insanı" modeli formalaşdırılmalı idi. Bu səbəbdən redaksiyalarda senzura ciddi nəzarət edir, yazılacaq materiallar yalnız partiya orqanlarının müəyyən etdiyi çərçivədə dərc edilirdi.

Sovet dövründə jurnalistikanın elmi əsaslarla tədrisinə xüsusi diqqət ayrılırdı. Bakı Dövlət Universitetinin jurnalistika fakültəsi məhz bu dövrdə fəaliyyətini gücləndirmiş, bir çox tanınmış jurnalist, redaktor və yazıçı bu fakültədə yetişmişdir. Eyni zamanda SSRİ Jurnalistlər İttifaqının Azərbaycan bölməsi də jurnalistlərin fəaliyyətinə nəzarət və istiqamətverici funksiyalar həyata keçirirdi.

Sovet mətbuatı yalnız siyasi təbliğat vasitəsi deyil, eyni zamanda maarifləndirici funksiyaları da yerinə yetirirdi. Elmin, texnikanın nailiyyətləri, əmək adamlarının həyatı, kənd təsərrüfatı, sənaye, sosialist yarışları və s. haqqında yazılarla cəmiyyətin məlumatlandırılması təmin olunurdu. Ədəbi tənqid, uşaq ədəbiyyatı, folklorla bağlı yazılar mətbuat səhifələrində geniş yer alırdı.

Baxmayaraq ki, sovet mətbuatı senzura ilə fəaliyyət göstərirdi, müəyyən çərçivədə tənqidə də yer verilirdi. "Konstruktiv tənqid" adı altında idarə və müəssisələrin fəaliyyətindəki nöqsanlar ifşa edilir, qəzetlərdə "xalq məktubları" dərc olunurdu. Bu, mətbuatın ictimai nəzarət funksiyasının simvolik forması kimi qəbul edilirdi.

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra mətbuatın inkişafı daha çox partiyalı mövqe ilə bağlı idi. Respublikanın "Kommunist" (ilk nömrəsi 1919-cu ildə çıxmışdır), "Bakinski raboçi" (1906-cı ildən çıxır), "Vışka" (1928-ci ildən çıxır), "Azərbaycan gəncləri", "Molodyoj Azerbaydjana" (ilk nömrələri 1919-cu ildə çıxmışdır), "Bakı", "Baku" (1958-ci ildən çıxır), "Ədəbiyyat və incəsənət" (1934-cü ildən çıxır) və sair tanınmış mətbuat orqanlarında kommunist ideologiyası ilə bağlı məsələlərlə yanaşı respublikanın iqtisadi, elmi, mədəni inkişafı ilə əlaqədar problemlər də öz əksini tapırdı.

1919-cu ildə 20-dən çox bolşevik qəzeti nəşr olunmuşdur. Azərbaycan dilində "Bakı Fəhlə Konfransının Əxbarı", "Azərbaycan gəncləri", "Hürriyyət","Haqq", "Füqəra sədası", "Zəhmət sədası", "Oktyabr inqilabı", "Gənc işçi", "Azərbaycan füqərası", rus dilində "Nabat", "Molot", "Proletari", "Raboçi put", "Qolos truda", "Bednota", "Molodoy raboçi", "Novı mir", və başqaları Azərbaycan bolşeviklərinin nəşr etdikləri qəzetlər idi. Doğrudur, bu qəzetlərin ömrü çox az olmuş, bəzilərinin cəmi bir və ya bir neçə nömrəsi çıxmışdır. "Kommunist" qəzeti "Hümmət’’, "Qoç-Dəvət", "Təkamül", "Yoldaş", "Hümmət" (1917–1918-ci il-lər), "Bakı Şurasının Əxbarı" kimi bolşevik qəzetlərinin davamçısı olaraq meydana atıldı.

"Kommunist" 1919-cu il avqustun 29-da həyata gəldi. "Kommunist" in 1919-cu il gizli çıxan nömrəsini Ruhulla Axundov redaktə etmişdi. Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra 1920-ci il aprelin 30-da Əliheydər Qarayevin redaktorluğu ilə"Kommunist" leqal şəkildə öz nəşrinə başladı.

Azərbaycanda sovet hakimiyyətinin ilk illərində "Kommunist" və "Bakinski raboçi" qəzetlərinin səhifələrində qəzalardan tez-tez materiallar dərc olunurdu. 1923-cü il iyunun 16-da Bakıda "Kəndçi qəzetəsi"nin birinci nömrəsi çapdan çıxdı. Azərbaycan Kommunist (bolşeviklər) Partiyasının Mərkəzi Komitəsi (KPMK) 1923-cü il iyulun 2-də Bakıda Şərq qadınlarının, xüsusilə Azərbaycan qadınlarını ictimai-siyasi həyata alışdırmaq məqsədilə aylıq, ədəbi, ictimai və siyasi jurnal olan "Şərq qadını"nın nəşr olunmasını qərara aldı. "Şərq qadını"jurnalının 1-ci nömrəsi 1923-cü ilin noyabrında 40 səhifədən ibarət 1000 nüsxə tirajla çapdan çıxmışdır. Jurnalın ilk redaktoru Ayna Sultanova olmuşdur. 1938-ci ildən "Şərq qadını", "Azərbaycan qadını" adı ilə nəşr olunmağa başlayıb.

1927-ci ilin fevralında "Pioner" jurnalı kütləvi tirajla çıxmağa başladı.

1934-cü il sentyabrın 2-də "Kommunist maarifi" qəzeti nəşrə başladı. 1938-ci ildə adı dəyişdirilərək "Müəllim qəzeti" adlandırıldı. Qəzet 1941-ci ilin iyununadək bu adla nəşr olundu. 1946-cı ilin aprelindən "Azərbaycan müəllimi" adı ilə yenidən nəşrə başlayan qəzet sonrakı illərdə də bu adla yaşadı.

İdman mətbuatınının ən böyük tarixə malik nəşri olan "İdman" qəzeti həm də Azərbaycan mətbuatının ən qocamanlarından biri sayılır. 1932-ci ildə ilk dəfə "Azərbaycan bədən tərbiyəçisi" ("Fizkulturnik Azerbaydjana") adı altında işıq üzü görmüş "İdman" qəzetinin artıq 70 — dən çox yaşı var. Sonrakı illərdə "Ədəbiyyat" (1933)", Azərbaycan pioneri" (1938), "Kirpi" jurnalı (1952), "Bakı " (1958) və s. qəzetləri meydana gəlmişdir. Sovet ideologiyasına xidmət etməsinə baxmayaraq, "Kirpi" müxtəlif nəsillərə mənsub olan peşəkar karikaturaçı rəssamları bir araya gətirə bilmişdi. Jurnala marağın artması, oxunaqlı olması bu sahəyə 1950–1960-cı illərdə Azərbaycanın rəssamları olan T. Salahov, K. Kazımzadə, G. Müstafayeva kimi şəxsiyyətləri cəlb etmişdi. Dövrün eybəcərliklərini əks etdirən felyeton, atmaca və karikaturalarla oxuyucularının pozulmuş hüquqlarını bərpa edir. 2012-ci il iyul ayının 10-u "Kirpi" jurnalının nəşrə başlamasının 60 illiyinə həsr olunmuş tədbir və sərgi keçirilmişdir. 30-cu illərdən başlayaraq Azərbaycan mətbuatı insanların cəzalandırma, represiya olunması alətinə çevrildi. Öz şəxsi əmlakını kolxoza verməyənlər, kollektivləşməyə etinasız yanaşanlar mətbuat səhifələrində xalq düşməni elan edilirdi. Jurnalistlər bu tip insanların aşkarlanıb cəzalandırılmasında partiya-sovet orqanlarının köməkçisi funksiyalarını daşıyırdılar: "Stalin şəxsiyyətinə pərəstiş formalaşması da 30-cu illərin ortalarından başlayır. Təkcə fəhlə və kəndlilərin deyil, xalqın dəyərli ziyalılarının ədiblərinin, elm adamlarının 37-ci ilin represiya "maşınında" məhv edilməsi prosesinə hazırlıq aparılırdı. Bu cür kütləvi təqib-təzyiq mexanizmlərinin işlədiyi, insanların əmlakının zorla alınıb fərdi təsərrüfatların, təşəbbüslərin ləğv edildiyi dönəmdə yeni sovet insanının savadsızlığını aradan qaldırmaq üçün tədbirlər də həyata keçirildi. 30-cu illərin başlanğıcında savadsızlığın ləğvi sahəsində kütləvi tədbirlərə başlanıldı. "Savadsızlığı ləğv etmək işi haqqında 1929-cu il may ayının 17-də qəbul edilmiş partiya qərarında milli respublikalarda savadsızlığın ləğv edilməsi bütün mədəni işin əsas və ən mühüm vəzifəsi kimi qeyd olunur. Aparılan tədbirlərin nəticəsində fəhlə və kəndlilərin oxuyub-yazmağa marağı getdikcə artırdı. Azərbaycan mətbuatı bu işin həyata keçirilməsində böyük fədakarlıqlar göstərir, qəzetlər əlifbanı öyrənənlər üçün xüsusi səhifələr ayırır, metodiki məqalələr çap edir, qabaqcıl "mədəni əsgərlərin" iş təcrübəsini yayırdılar.

"Kommunist", "Kəndli qəzeti", "Komsomol" jurnalının bütöv səhifələri "Savad kursları"na həsr olunurdu. 1930-cu ildən başlayaraq bir çox savad məktəblərində, qruplarında əlifbanı öyrətməklə yanaşı, "siyasi dərslər" təlim olunurdu, ölkədəki vəziyyət, partiyanın siyasəti izah edilirdi. Savadsızlığın ləğv edilməsi işinin zəhmətkeşlərin siyasi maariflənməsi ilə əlaqələndirilməsi partiya və hökumətin maraqlarına tam cavab verirdi. Çünki bu yolla hakim "siyasət və ideologiya" kütlələrin şüuruna yeridilməli, onlar "sosializm"in tərəfdarları kimi tərbiyələndirilməli idilər.

Savadsızlığın ləğv edilməsi tədbiri əlifba islahatının keçirilməsi ilə paralel aparıldı. Azərbaycan MİK və Azərbaycan SSR XKS 1928-ci il iyulun 21-də "Azərbaycanda yeni türk əlifbasının icbari və qəti olaraq tətbiq olunması" haqqında qərar qəbul etdi. "Bakinski raboçi" qəzeti 22 iyul 1928-ci il tarixli sayında əlifba islahatı ilə bağlı yazırdı: "Azərbaycanın əldə edəcəyi ümumi savadlılıq yalnız yeni əlifba sayəsində mümkündür". Yeni türk əlifbasının tətbiqi üçün yaradılan komissiyaya Səmədağa Ağamalıoğlu rəhbərlik edirdi. Q. Musabəyov, Ə. Qarayev, A. Məmmədov, İ. Konuşkin, Q. Hüseynov, K. İşkova və M. Quliyev komissiyanın üzvü kimi fəaliyyət göstərirdilər. 1929-cu il yanvarın 1-dən Azərbaycan SSRİ-nin yeni əlifbaya keçməsi rəsmən elan olundu və hökumətin "Azərbaycanın bütün fəhlələri və kəndlilərinə" müraciəti qəbul edildi. "Yeni yol" qəzeti bu barədə 21 iyun 1928-ci il sayında yazırdı: "Yeni əlifbanın tətbiqi savadsızlığın ləğv edilməsi işini xeyli asanlaşdıracaq, kütlələrin maariflənməsi yüksəlişinə böyük maraq yaradacaq". Böyük rus yazıçısı Maksim Qorki Azərbaycanın bu işdə qabaqcıl rolunu xarakterizə edərək yazırdı: "Azərbaycan xalqı bütün Şərq xalqlarının gözü önündə qəti addımlar atıb və əlifba islahatını həyata keçirməklə bütün xalqlara gələcəyin yolunu göstərib". Latın qrafikalı yeni əlifbanın Azərbaycanda tətbiqi xəbəri ölkənin sərhədlərindən də kənara çıxdı. Əlifba islahatı Türkiyədə də həyata keçirildi. 1928-ci ilin əvvəlində "Əş-Şura" qəzeti xəbər verirdi ki, Türkiyə ictmaiyyətinin səlahiyyətli nümayəndələrinin İstanbulda keçirilən konfransı qərara alır ki, xalq latın əlifbasından istifadə etməlidir. Həmin ilin iyununda BMM-in yığıncağında yeni əlifbanın tətbiqi üçün xüsusi komissiya yaradıldı, payızda isə Türkiyə latın əlifbasına keçdi. Vahid şəklə salınmış latın əlifbası Azərbaycanda 1932-ci ilin iyununda qəbul edildi. Lakin diqqət və elmi müzakirələr nəticəsində hazırlanmış, bir çox cəhətdən təkmilləşdirilərək vahid şəklə salınmış latın əlifbası təəssüf ki, uzun müddət davam etmədi. Artıq 30-cu illərin ortalarında Sovetlər İttifaqının latın əlifbasına keçmiş digər respublika və vilayətlərində olduğu kimi Azərbaycanda da rus-kiril yazı qrafikasına keçirilməsi uğrunda hərəkat başlanıldı. Rus qrafikasına keçirilməsinə heç bir zərurət olmasa da bu, əslində Mərkəzin "hakim, şovinist iddiasından doğan" məcburi tədbir idi. Azərbaycan SSR Ali Sovetinin növbəti sessiyası 1939-cu ilin iyulunda latın əlifbasının kirillə əvəz edilməsi haqqında qanun qəbul etdi və bu qanun 1940-cı ilin yanvarın 1-dən qüvvəyə mindi. Bununla da ölkədə rus dilinin fəaliyyət dairəsi genişləndirildi. Beləliklə tarixən qısa zaman kəsiyində Azərbaycanda iki dəfə əlifba dəyişildi və çoxcəhətli, rus şovinizmindən doğulan milli mədəniyyətlərin sıradan çıxarılmasına yönələn bu tədbir Azərbaycan mətbuatının jurnalistikasının inkişafının qarşısını aldı, savadsızlığın ləğvi ilə oxucu auditoriyası qazanan qəzetlər öz oxucularının bir qismini itirdi.

Müəllif əsərində qeyd edib ki, həmin dövrdə qəzetlər rəsmi dövlət siyasətinin "marksist-leninçi" ideyalarının təbliği, sosialist qurucuları olan yeni insanların formalaşması üçün güclü partiya silahı idi. Qəzetlərin keyfiyyətli çapı üçün mətbəələrin yaradılması prosesinə diqqət yönəldilirdi: "1933–1934-cü illərdə Bakıda böyük texniki imkanlara sahib "Mətbuat sarayı" adlı mətbəə fəaliyyətə başladı. SSRİ məkanında aparılan inzibati-ərazi dəyişikliyi ilə əlaqədar olaraq 1930-cu ilin avqustunda qəzet şəbəkəsinin yenidən qurulması, inkişafı haqqında qərar qəbul edildi.

Həmin qərarın əsasında SSRİ məkanında olduğu kimi Azərbaycanda rayon qəzetlərinin geniş şəbəkəsinin yaradılmasına başlanıldı. Yeni rayon qəzetləri işıq üzü gördü. Bu dövrdə rayonlarda yeni mətbəələrin qurulması və inkişafı MK-nın rəhbərliyi altında Bakı poliqrafiya tresti tərəfindən həyata keçirilirdi. Artıq 1932-ci ilin axırlarında respublikamızın 32 rayonunda mətbəə təşkil edildi. Aparılan statistik göstəricilərə görə, 1939-cu ildə Azərbaycan dilində 80-dən artıq qəzet nəşr olunurdu. Bir çox müəssisələrin, sovxoz və kolxozların da öz qəzetləri vardı. 1937-ci ildə 834 min nüsxə tirajla 45 jurnal çıxırdı. Fəhlə-kəndli müxbirləri hərəkatı 1934-cü ildə 18 min nəfəri əhatə edirdi.